**QHT-lərin fəaliyyətini tənzimləyən qanunlara əlavə və dəyişikliklər edilməsi haqqında qanun layihələri ilə əlaqədar**
**Arayış**

Təqdim olunan qanun layihələri Azərbaycan Respublikasında qeyri-hökumət təşkilatlarının (QHT) təsis edilməsi, dövlət qeydiyyatına alınması və fəaliyyətinin hüquqi nizamlanması baxımından mövcud olan bir sıra hüquqi problemlərin aradan qaldırılmasına yönəlib.

I. QHT-lərin təsis olunması sahəsində mövcud olan əsas hüquqi problemlərə QHT-lərin məqsəd və fəaliyyətləri, habelə təsisçilərin dairəsinin müəyyən olunması ilə əlaqədar qoyulan məhdudlaşdırıcı çərçivələr aiddir. Qüvvədə olan qanunvericilik QHT-lərin məqsəd və fəaliyyət sahələrinin müəyyən olunması zamanı bir sıra məhdudlaşdırıcı çərçivələr müəyyən edir. Ümumi məhdudlaşdırıcı çərçivə bundan ibarətdir ki, qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə qadağan olunmamış məqsədlər üçün yaradıla və fəaliyyət göstərə bilər. Bundan başqa, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Qanunun ayrı-ayrı maddələrində bir sıra digər məhdudiyyətlər müəyyən edilir ki, bunların heç də hamısı kifayət qədər əsaslı hesab oluna bilməz.

I.1. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanunun 13.3.-cü maddəsinə görə QHT-lərin nizamnamələrində dövlət və yerli özünüidarə orqanlarının səlahiyyətlərinin mənimsənilməsinə, habelə dövlət nəzarəti və yoxlama funksiyalarının nəzərdə tutulmasına yol verilmir.

Prinsip etibarilə düzgün olan bu müddəanın məzmunu qeyri dəqiqdir və təcrübədə daha geniş təfsir olunaraq QHT-lərin fəaliyyətlərinin məhdudlaşdırılması kimi sui-istifadələrə gətirib çıxara bilər. İlk növbədə "dövlət və yerli özünüidarə orqanlarının səlahiyyətlərinin mənimsənilməsi" dedikdə, nəyin başa düşülməsi dəqiqləşdirilməlidir. Qüvvədə olan qanunvericilikdə bu dəqiqləşdirilmədiyindən təcrübədə qeyri-hökumət təşkilatlarının dövlət və yerli özünüidarə orqanlarının funksiyalarına oxşar və ya paralel fəaliyyətlərin həyata keçirilməsi də səlahiyyətlərin mənimsənilməsi kimi qiymətləndirilə bilər. Halbuki beynəlxalq sənədlər və xarici təcrübə qeyri-hökumət təşkilatlarının dövlət və yerli özünüidarə orqanlarının funksiyalarına paralel fəaliyyətlərin həyata keçirilməsini nəzərdə tutur və bu, həmin orqanlarının səlahiyyətlərinin mənimsənilməsi hesab olunmur. Bundan başqa, dövlət və yerli özünüidarə orqanlarının səlahiyyətlərinin mənimsənilməsi ümumiyyətlə qanunvericiliklə qadağan edildiyindən QHT qanununda belə bir müddəanın yenidən təsbit edilməsinə xüsusi zərurət yoxdur.

Digər tərəfdən, qeyd etmək lazımdır ki, dövlət nəzarəti və yoxlama funksiyalarının nəzərdə tutulmasına yol verilmir" müddəası həm də, dövlət idarəetməsində və yerli özünüidarəetmədə ictimai nəzarətin həyata keçirilməsinə ciddi problemlər yarada bilər. Məlum olduğu kimi Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev dövlət idarəetməsində və yerli özünüidarəetmədə ictimai nəzarətin həyata keçirilməsinin zəruriliyini dəfələrlə vurğulamışdır. İctimai nəzarətin həyata keçirilməsinin təsirli mexanizmlərindən biri QHT-lərdir.

"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanunun 13.3.-cü maddəsinin qüvvədə olan mətni QHT-lərin, xüsusən də sosial yönümlü QHT-lər təsis olunması və dövlət qeydiyyatına alınmasında, dövlət idarəetməsində və yerli özünüidarəetmədə ictimai nəzarətin həyata keçirilməsində əlavə maneələr yaradılmasına gətirib çıxarır.

Buna görə də təklif olunur ki, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Qanunun 13.3.-cü maddəsi ləğv edilsin və Qanunun 2.4-cü maddənin sonuna QHT-lərin ictimai nəzarətin həyata keçirilməsində iştirak etmək hüququ birmənalı şəkildə nəzərdə tutulsun. Təbii ki, ümumiyyətlə ictimai nəzarətin həyata keçirilmə mexanizmi barədə ayrıca qanunvericilik aktının (qanunun və ya prezident fərmanının) qəbulu məqsədəuyğundur.

I.2. “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Qanunun 9.1-1.-ci maddəsinə görə. Azərbaycan Respublikasında daimi yaşamaq hüququ olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində qeyri-hökumət təşkilatının təsisçisi və qanuni təmsilçisi ola bilərlər.

Bu norma əsas insan hüquqları və azadlıqları haqqında Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq sənədlərə və ölkəmizin Konstitusiyasına uyğun gəlmir. Belə ki,həm beynəlxalq sənədlər və həm də ölkəmizin Konstitusiyasında birləşmək hüququ Azərbaycan Respublikasının Konstitusiyası ilə təkcə dövlətin öz vətəndaşları üçün deyil, hər kəs üçün, o cümlədən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin fundamental hüquqlarından biri kimi nəzərdə tutulur. QHT-lər siyasi xarakterli təşkilatlar olmadığı, siyasi fəaliyyətlə məşğul olmadığı üçün təsisçilərin vətəndaşlığı ilə bağlı bu məhdudiyyətin məqsədi aydın deyil. Azərbaycan Respublikasının ərazisində qanuni əsaslarla yaşayan (turist və ya tranzit vizası ilə gələnlər istisna olmaqla) əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin öz peşə, həvəskar maraqlarını təmin etmək, mədəniyyətlərini təbliğ etmək, dostluq əlaqələrini inkişaf etdirmək və s. ictimai maraqlarını realizə etmək, ictimai fəaliyyətlə məşğul olmaq məqsədilə qeyri-hökumət təşkilatlarında birləşməsi Azərbaycanın bir dövlət kimi maraqlarına heç bir təhdid yaratmır.

Qanunun 12.3-cü maddəsinə əsasən Azərbaycan Respublikasında xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin dövlət qeydiyyatı həmin təşkilatlarla bağlanmış saziş əsasında həyata keçirilir. Sazişdə onun qüvvədə olma müddəti göstərilməlidir. Bu norma xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin dövlət qeydiyyatı prosesinin əsassız olaraq çətinləşdirir. Belə ki, qeydiyyatçı orqan heç bir əsas gətirmədən subyektiv və ya siyasi mülahizələrlə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin dövlət qeydiyyatı üçün həmin təşkilatlarla saziş bağlamaqdan imtina edə blər.

Bunları nəzərə alaraq, “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” qanunun 9.-1 və 12.3-cü maddələrinin ləğv edilməsi təklif olunur.

I.3. “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanunun 10.5.-ci maddəsinə görə qeyri-hökumət təşkilatlarının icra orqanları tərəfindən təşkilatın üzvlərinin hüquqlarının pozulmasına yol verilməməlidir. Qeyri-hökumət təşkilatlarının üzvləri ilə təşkilat arasında yaranan mübahisələr məhkəmə qaydasında həll olunur. Məhkəmə tərəfindən işə baxılarkən təşkilatın üzvlərinin hüquqlarının pozulduğu müəyyən edildikdə qeyri-hökumət təşkilatının fəaliyyəti məhkəmə qərarı ilə dayandırıla bilər. Qanunun 31.3.3-cü maddəsinə əsasən qeyri-hökumət təşkilatının icra orqanı tərəfindən təşkilatın üzvlərinin hüquqlarının pozulması müəyyən edildikdə QHT-nin fəaliyyəti məhkəmə qərarı ilə bir ilədək müddətə dayandırıla bilər

Qeyri-hökumət təşkilatlarının icra orqanları tərəfindən təşkilatın üzvlərinin hüquqlarının pozulması ilə bağlı alternativ sanksiya nəzərdə tutmadan yalnız təşkilatın fəaliyyətinin dayandırılması formasında sanksiyanın nəzərdə tutulması pozuntunun xarakterinə və QHT idarəetməsinin mahiyyətinə adekvat deyil. Az əhəmiyyətli pozuntular, eləcə də başqasının hüquqlarının müdafiəsi ictimai birliyin digər iştirakçılarının hüquqlarının pozulması ilə nəticələnməməlidir. Təşkilatdaxili mübahisələr ilk növbədə təşkilatın nizamnaməsi ilə tənzimlənməli, mübahisənin Nizamnamə çərçivəsində həllinə nail olunmadıqda isə məhkəməyə müraciət mümkün olmalıdır.

Buna görə də Qanunun 10.5-ci maddəsinin yeni redaksiyada verilməsi 31.3.3-cü maddəsinin ləğv edilməsi təklif olunur. Yeni redaksiyada nəzərdə tutulur ki, QHT-lərin üzvləri ilə təşkilat arasında yaranan mübahisələr QHT-lərin nizamnaməsində nəzərdə tutulan qaydada həll olunur. QHT-lərin icra orqanları tərəfindən pozulmuş hüquqların məhkəmə qaydasında müdafiəsinə təminat verilir.

1.4. Qüvvədə olan qanunvericilik QHT-lərin ianələr, habelə xidmətlərin göstərilməsi və işlərin görülməsi vasitəsilə maliyyələşmə imkanlarını da məhdudlaşdırır. Belə ki, “Qeyri-

hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanunun 24-1-ci maddəsinə əsasən QHT-lərə bir qayda olaraq, Azərbaycan Respublikasının vətəndaşı, yaxud Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxs tərəfindən ianələr verilə bilər. Xarici şəxslərdən yalnız xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi Azərbaycan Respublikasında dövlət qeydiyyatından keçdikdən sonra ianəçi kimi çıxış edə bilərlər. Xarici dövlətin qeyri-hökumət təşkilatı özünün filial və ya nümayəndəliyi Azərbaycan Respublikasında dövlət qeydiyyatından keçirmək üçün isə müvafiq dövlət orqanı ilə saziş bağlamalıdır. Təcrübə göstərir ki, xarici dövlətin qeyri-hökumət təşkilatları əksər hallarda bu prosedurlardan keçmək istəmir və ölkəmizdə fəaliyyət göstərməməyə üstünlük verirlər.

Bundan başqa, QHT-lər ianələri nağd şəkildə deyil, bank hesablarına köçürmə yolu ilə ala bilərlər. Yalnız başlıca məqsədi xeyriyyəçilik olan QHT-lər iki yüz manatadək ianəni nağd şəkildə qəbul edə bilər. QHT-lər qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatları müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanına (ədliyyə Nazirliyinə) təqdim etdikdən sonra həmin ianələr üzrə bank əməliyyatları və hər hansı digər əməliyyatlar apara bilər.

Qanunun 24-2.1-ci maddəsində nəzərdə tutulan xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilənin müvafiq icra hakimiyyəti orqanında qeydə alınması tələbi isə müasir dünyada analoqu olmayan bir tələbdir.

Bütün bu məhdudiyyətlər və bürokratiik əngəllər həm QHT-lərə ianə vermək istəyən fiziki və hüquqi şəxslər, həm də ianə toplamaq istəyən, xidmətlərin göstərilməsi və ya işlərin görülməsi yolu ilə maliyyə əldə etmək istəyən QHT-lər üçün çəkindirici amil kimi çıxış edir. Ona görə də bu günkü reallıqda ianələr, xidmətlərin göstərilməsi və ya işlərin görülməsi QHT-lərin maliyyələşmə mənbəyi kimi formal xarakter daşıyır. İanələrin, xidmətlərin göstərilməsi və ya işlərin görülməsinin QHT-lərin nisbətən təsirli maliyyələşmə mənbəyinə çevrilməsi üçün qanunvericilikdə nəzərdə tutulan lazımsız inzibati məhdudiyyətlər və bürokratiik əngəllər ləğv edilməlidir. Buna görə də, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanunun 24-1-ci maddəsinə müvafiq dətişikliklərin edilməsi, 24-2-ci maddənin isə ləğv edilməsi təklif olunur.

I.5. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanunun 29.4.-cü maddəsi qeyri-hökumət təşkilatının illik maliyyə hesabatını hər il aprel ayının 1- dən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanına (Maliyyə Nazirliyinə) təqdim etməsini nəzərdə tutur. Qeyd etmək lazımdır ki, bütün hüquqi şəxslər kimi QHT-lər də vergilər, sosial müdafiə və statitika orqanlarına rüblük və illik hesabatlar təqdim edirlər. Maliyyə nazirliyinə illik maliyyə hesabatının təqdim olunmasının hansı zərurətdən irəli gəlməsi aydın deyil. Həm də Maliyyə Nazirliyinə illik maliyyə hesabatının təqdim olunması vəzifəsi yalnız QHT-lər üçün nəzərdə tutulur. Kommersiya təşkilatlarına münasibətdə belə vəzifə müəyyən edilməmişdir. Bu mənada həmin tələbi QHT-larına münasibətdə ayrı-seçkilik kimi qiymətləndirmək olar.

Buna görə də, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanunun 29.4.-cü maddəsinin ləğv edilməsi təklif olunur.

I.6. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanunun 30-1.-ci maddəsi qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsini nəzərdə tutur. Müəyyən olunur ki, qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı (Ədliyyə Nazirliyi) tərəfindən müəyyən edilir. Müvafiq icra hakimiyyəti orqanı qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə

(əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsi işinə aidiyyəti dövlət orqanlarının və digər qeyri-hökumət təşkilatlarının nümayəndələrini cəlb etmək səlahiyyətinə malikdir.

Bu müddəa “öyrənmə” adı altında müvafiq dövlət orqanına istənilən zaman QHT-lərin bütün fəaliyyətinin yoxlanılması və həmin fəaliyyətə müdaxilə etmək kimi geniş diskresion səlahiyyətlər verilir.

Dövlət orqanı üçün bu cür geniş diskresion səlahiyyətlərin tanınması bu səlahiyyətlərdən sui-istifadə edilməyəcəyinə heç bir zəmanət vermir. Qanunvericiliyin bütün hüquqi şəxslər üçün müəyyən etdiyi tələblər QHT-lərə də aid oldugu halda bu cür əlavə tələblərin müəyyən edilməsi QHT-lərə münasibətdə ayrı-seçkilik kimi qiymətləndirmək olar. QHT-lərin fəaliyyətinin yoxlanılması ilə bağlı tələblər digər hüquqi şəxslərdən fərqlənməməlidir.

Buna görə də təklif edilir ki, “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanunun 30-1 maddəsi ləğv edilsin.

II. QHT-lərin dövlət qeydiyyatına alınması sahəsindəki əsas hüquqi problemlər ondan ibarətdir ki, qüvvədə olan qanunvericilik qeyri-hökumət təşkilatlarının qeydiyyat prosesinin zərurət olmadan uzadılmasına, bir sıra hallarda isə qeyri-müəyyən əsaslara görə dövlət qeydiyyatından imtina olunmasına hüquqi imkan yaradır.

II.1. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” qanunun 8.1.-ci maddəsində dövlət qeydiyyatının 40 gündən gec olmayaraq həyata keçirilməsi göstərilsə də, 8.2.-ci, 8.3.-cü və 8.4.-cü maddələrində müddətin əvvəlcə 30 gün müəyyən edilməsi, əlavə araşdırmalar üçün daha 30 gün uzadılması, çatışmazlığın aradan qaldırılması üçün müddətin daha 20 gün uzadılması və bundan sonrakı prosesdə QHT-nin dövlət qeydiyyatına alınıb-alınmaması barədə 10 gün müddətində qərarın qəbul edilməsi nəzərdə tutulub.

Qeydiyyat müddətlərin bu cür müəyyən edilməsi qeydiyyat orqanının qeydiyyat prosesini subyektiv mülahizələrlə uzatması üçün hüquqi imkanlar yaradır və qeydiyyatın sürətliliyini təmin etmir. Başqa sözlə, müvafiq icra hakimiyyəti orqanı qeyri-komersiya hüquqi şəxslərin, o cümlədən QHT-lərin dövlət qeydiyyatına alınması prosedurlarını 90 günədək uzada bilər. Halbuki adı çəkilən qanun kommersiya hüquqi şəxslərinin qeydiyyatı üçün ən çoxu 3 günlük müddət müəyyən edir. Kommersiya hüquqi şəxslərinin qeydiyyatı prosesini 3 günə başa çatdırımaq mümkündürsə, QHT-lərin qeydiyyat prosedurunu tamamlamaq üçün 30 dəfə artıq vaxtın müəyyən olunması heç bir hüquqi prinsipə söykənmir.

Buna görə də QHT-lərin dövlət qeydiyyatına alınması prosesinin sürətliliyinin təmin edilməsi məqsədilə müddətlər haqqında normaların dəyişdirilməsi, qeyri-kommersiya hüquqi şəxslərinin dövlət qeydiyyatının kommersiya hüquqi şəxslərinin qeydiyyatında olduğu kimi ən geci 3 gün müddətində başa çatdırılması təklif olunur.

II.2. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Qanunun 11.1.-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş əsaslardan başqa hər hansı digər əsasa görə, hüquqi şəxs statusu almaq istəyən qurumların, habelə xarici hüquqi şəxsin nümayəndəlik və ya filiallarının dövlət qeydiyyatına alınmasından və dövlət reyestrinə daxil edilməsindən, eləcə də dövlət reyestrində dəyişikliklər edilməsindən imtinaya yol verilmir. Bu ümumi normadan sonra, Qanunun 11.3-cü maddısindı dövlət qeydiyyatından imtinanın əsasaları göstərilir. Göstərilən əsasların bəziləri qeyri müəyyən xarakter daşıyır.

Belə ki, Qanunun 11.3.1.-ci maddəsinə əsasən dövlət qeydiyyatı üçün təqdim edilən sənədlər Azərbaycan Respublikasının Konstitusiyasına, bu Qanuna və digər qanunvericilik aktlarına zidd olduqda qeydiyyatdan imtina olunur. Bu normada imtina üçün əsas gətirilən dövlət qeydiyyatı üçün təqdim edilən sənədlərin digər qanunvericilik aktlarına da zidd olması tələbi geniş və qeyri-müəyyəndir. Həmçinin, Qanun 11.4.-cü maddəsi dövlət qeydiyyatı üçün bu qanunda nəzərdə tutulmayan digər sənədlərin tələb edilməsi üçün hüquqi imkanlar yaradır.

Bütün bunlar isə, QHT-lərin dövlət qeydiyyatına almaqdan subyektiv mülahizələr üzrə imtina üçün əlavə əsaslar yaradır.

Buna görə də, həmin qanunun 11.3.1.-ci maddəsindən "və digər qanunvericilik aktlarına" sözlərinin çıxarılması təklif olunur.

III. Qüvvədə olan qanunvericilik QHT-lərin xarici mənbələrdən maliyyə, o cümlədən qrant əldə etmək imkanını həddindən artıq məhdudlaşdırır.

"Qrant haqqında" qanunun 2-ci maddəsinin 5-ci bəndində görə beynəlxalq və xarici təşkilatlar Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnu əldə etdikdən sonra donor qismində çıxış edə bilərlər. Qrant vermək hüququnun əldə edilməsi üçün müvafiq icra hakimiyyəti orqanının qrantın maliyyə-iqtisadi məqsədəmüvafiqliyinə dair rəyi tələb olunur.

Həmin qanunun 3-cü maddəsinin 5-ci abzasına əsasən QHT-lər qrant vermək hüququ olan beynəlxalq və xarici donorların heç də hamısından deyil, yalnız xarici dövlətlərin QHT-lərinin Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış filial və nümayəndəliklərindən qrant ala bilərlər. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar haqqında" qanunun 12.3-cü maddəsinə görə isə Azərbaycan Respublikasında xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin dövlət qeydiyyatı həmin təşkilatlarla bağlanmış müddətli saziş əsasında həyata keçirilir.

Başqa sözlə, Azərbaycan Respublikasında fəaliyyət göstərən QHT-lər üçün xarici donor qismində yalnız xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatına alınmış filial və nümayəndəlikləri çıxış edə bilərlər. Donor qismində çıxış etmək istəyən xarici dövlətlərin qeyri-hökumət təşkilatları bir neçə prosedurdan keçməyə məcburdurlar. Əvvəlcə filial və nümayəndəliklərini dövlət qeydiyyatına aldırmaq üçün Azərbaycan Respublikasının müvafiq dövlət orqanı ilə saziş bağlamalı, sonra isə filial və nümayəndəliyi dövlət qeydiyyatına aldırmalı, daha sonra isə qrant vermək hüququi əldə etmək üçün müvafiq icra hakimiyyəti orqanına müraciət etməli və bu hüququ əldə etməlidir. Bu hüququn əldə olunması üçün müraciət etmiş xarici donorlara fərqli və bürokratik yanaşma hallarına dair faktlar məlumdur.

Bundan başqa, "Qrant haqqında" Qanunun 4-cü maddəsinin 4-cü və 4-1.-ci bəndlərinə görə Azərbaycan Respublikasının resipiyentlərinin aldıqları qrantlar haqqında müqavilələr (qərarlar), habelə sub-qrantlar və qrant müqaviləsi (qərarı) üzrə əlavə müqavilələr, habelə müqavilələrin (qərarların) müddəti, məqsədi və məbləği ilə bağlı dəyişikliklər qeydə alınması üçün resipiyentlər tərəfindən müvafiq icra hakimiyyəti orqanına təqdim olunmalıdır. Həmçinin, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar haqqında" qanunun 24-2- ci maddəsinə görə qeyri-hökumət təşkilatının xarici donorlarla bağladığı xidmət müqaviləsi də müvafiq icra hakimiyyəti orqanında qeydə alınmalıdır. Bu tələblər də QHT-lərin xarici mənbələr hesabına maliyyələşməsinə əlavə bürokratik və inzibati maneələr yaradır. Donorlardan və QHT-lərdən asılı olaraq qrant müqavilələrin (qərarlarının), həmçinin xidmət müqavilələrinin heç bir əsas göstərilmədən qeydə alınmasının süründürməçiliyə salınmasına və ya qeydə alınmamasına dair çoxsaylı problemlər mövcuddur. Bu problemlər də əksər xarici donorları QHT-lərə qrant verməkdən çəkindirir.

Beləliklə, bir tərəfdən qüvvədə olan qanunvericilikdəki tələblər, digər tərəfdən isə həmin tələblərdən sui-istifadə halları QHT-lərin xarici maliyyə mənbələrinə çıxışını xeyli məhdudlaşdırır. Təcrübə göstərir ki, xarici donorların əksəriyyəti bu mürəkkəb prosedurlarla, həmçinin fərqli və bürokratik yanaşma halları ilə razılaşmayaraq Azərbaycan Respublikasını tərk edir, ölkəmiz üçün ayırması nəzərdə tutulan qrantlar daha sadə prosedurlar müəyyən olunan dövlətlərə yönəldilir. Bu gün, demək olar ki, heç bir təşkilat Azərbaycanda QHT-lər üçün donor

qismində çıxış etmir. QHT-lər yalnız daxili mənbələr, xüsusən də dövlət büdcəsindən verilən qrantlar hesabına maliyyələşir. Bu da ölkəmizdə QHT sektorunun genişlənməsi və daha da inkişaf etdirilməsi üçün yetərli sayıla bilməz.

Qeyd etmək lazımdır ki, Azərbaycan qanunvericiliyində QHT-lərin xarici donorlardan qrant almaq hüququnu məhdudlaşdıran müddəalar əksər ölkələrdə nəzərdə tutulmayıb. Həmin müddəalar eyni zamanda "Avropada qeyri-hökumət təşkilatlarının hüquqi statusuna dair" Avropa Şurası Nazirlər Komitəsinin üzv dövlətlərə CM/Rec(2007)14 saylı Tövsiyəsinə, Avropa Şurası Parlament Assambleyasının Tövsiyə və Qətnamələrinə, Avropa Şurası Venesiya Komissiyası və ATƏT-in Demokratik Təhsisatlar və İnsan Hüquqları Bürosunun (ATƏT DTİHB) birləşmək azadlığına dair Birgə Prinsipləri və birləşmək azadlığına dair Venesiya Komissiyasının qəbul etdiyi Rəylərə də ziddir.

Bütün bunları nəzərə alaraq, QHT-lərin xarici mənbələr hesabına maliyyələşnməsini məhdudlaşdıran normaların "Qrant haqqında" qanunlardan çıxarılması təklif olunur.

IV.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 465.-ci maddəsi ianələr barədə məlumatın maliyyə hesabatına daxil edilməməsinə görə qeyri-hökumət təşkilatının, o cümlədən xarici dövlətin qeyri-hökumət təşkilatının filial və nümayəndəliyinin inzibati məsuliyyətini nəzərdə tutur. Məcəllənin 580-ci maddəsi qeyri-hökumət təşkilatlarının, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və qanunvericiliyə uyğunluğunun öyrənilməsinə maneələrin törədilməsinə görə inzibati məsuliyyət müəyyən edir.

"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununa təklif olunan dəyişikliklərdə QHT-lərin illik maliyyə hesabatı verməsi tələbini müəyyən edən 29.4-cu, habelə QHT-lərin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsi tələbini müəyyən edən 30-1 maddəsinin ləğvi təklif edildiyindən İXM-nin 465-ci maddəsinin QHT-lərə aid hissəsi də çıxarılmalı və 580-ci maddəsi isə bütövlükdə ləğv edilməlidir.

IV.2 İXM-nin 579 və 581-ci maddələrinin sanksiyalarında müəyyən edilən cərimə məbləğləri həddindən artıq çoxdur və QHT-lərin mövcud maliyyə imkanlarına uyğun deyil. Ona görə də həmin cərimələrin məbləğinin azaldılması tövsiyyə təklif olunur.

IV.3. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Qanunun 29.5.-ci maddəsində göstərilir ki, qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri öz fəaliyyətinin şəffaflığını təmin etməlidirlər. Qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri korrupsiya hüquqpozmalarının, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədi ilə onun üçün müvafiq qanunvericiliklə müəyyən edilmiş tədbirləri yerinə yetirməlidirlər.

QHT-lərin üzərinə qoyulan bu öhdəlik "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında"qanunun tələblərindən irəli gəlir. Bu qanunun 4.1.9 maddəsi monitorinq iştirakçıları sırasında qeyri-hökumət təşkilatlarını və xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliyini də nəzərdə tutur. Qanunun məqsədləri üçün nəzərdə tutulan tədbirlərin dairəsinin genişliyi QHT-lərin bu tədbirləri həyata keçirmələri üçün lazım olan təşkilati və maliyyə imkanlarına uygun deyildir. Bu tələbin QHT-lərə münasibətdə illik maliyyə dövriyyəsindən asılı olaraq differensial şəkildə tətbiq edilməsi daha məqsədəuygun və məntiqi olardı. Manitorinqin subyekti kimi bütün QHT-lər deyil, illik

maliyyə dövriyyəsi müəyyən məbləğdən (məsələn, 50 min manatdan çox olan QHT-lər hesab olunmalıdır.

Buna görə də, həmin qanunun 4.1.9-cu maddəsinə "köçürən" sözündən sonra "illik dövriyyəsi 50 min manatdan çox olan" sözlərinin əlavə olunması təklif edilir.

*Layihə*

**“Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Qrant haqqında” və “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10, 15, 17 və 20-ci bəndlərini rəhbər tutaraq qərara alır:

**Maddə 1.** “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 10, maddə 710; 2001, № 9, maddə 576, № 11, maddə 675; 2003, № 1, maddə 16; 2005, № 4, maddə 278, № 8, maddə 684, № 10, maddə 908; 2007, № 11, maddələr 1049, 1053; 2008, № 8, maddə 699; 2009, № 7, maddə 517, № 8, maddə 611; 2010, № 4, maddə 265; 2013, № 3, maddə 216; 2014, № 2, maddə 79, № 11, maddə 1359; 2018, № 6, maddə 1160, № 7 (I kitab), maddə 1405; 2020, № 8, maddə 1018) aşağıdakı əlavə və dəyişikliklər edilsin:

1.1. 2.4-cü maddənin sonuna aşağıdakı məzmunda beşinci cümlə əlavə edilsin:
“Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının qanunvericiliyi və öz nizamnaməsində nəzərdə tutulmuş qaydada fəaliyyət sahəsi üzrə ictimai nəzarətin həyata keçirilməsində iştirak edə bilər.”

1.2. 9.1-1, 12.3, 13.3, 24.2, 30-1 və 31.3.3-cü maddələr ləğv edilsin, 31.2.2-ci maddəyə “görə”sözündən sonra “iki dəfə” sözləri əlavə edilsin.

1.3. 10.5-cü maddə aşağıdakı redaksiyada verilsin:
“10.5. Qeyri-hökumət təşkilatlarının üzvləri ilə təşkilat arasında yaranan mübahisələr qeyri-hökumət təşkilatının nizamnaməsində nəzərdə tutulan qaydada həll olunur. Qeyri-hökumət təşkilatlarının icra orqanları tərəfindən pozulmuş hüquqların məhkəmə qaydasında müdafiəsinə təminat verilir.”

1.4. 16.3-cü maddədə “qurumlardan” sözü “qeyri-hökumət təşkilatlından 3 gün, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliyindən isə” sözləri ilə əvəz edilsin.

1.5. 24-1-ci maddə üzrə:
1.5.1. 24-1.1-ci maddədən “(bu Qanunun 12.3-cü maddəsində nəzərdə tutulmuş sazişi bağlamış xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi)” sözləri çıxarılsın.
1.5.2. 24-1.4 və 24-1.5-ci maddələr müvafiq olaraq aşağıdakı redaksiyada verilsin
“24-1.4. İanə edilən pul vəsaitləri qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin bank hesabına köçürmə yolu ilə və yaxud nağd şəkildə qəbul edilir. Nağd şəkildə qəbul edilən ianələrin uçotu müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydada aparılmalıdır.
24-1.5. Qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə qurumun illik maliyyə hesabatına daxil edilir.”

1.6. 24-3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 24-3. Qrant müqavilələrinin (qərarlarının) və ianələr üzrə məlumatların elektron qaydada təqdim edilməsi

Qeyri-hökumət təşkilatları qrant müqavilələrini (qərarlarını) və qəbul etdikləri ianələr üzrə məlumatları müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi vasitəsilə elektron qaydada təqdim edə bilərlər."

**Maddə 2.** "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8; 2005, № 1, maddə 1, № 8, maddə 700; 2006, № 2, maddə 70; 2008, № 2, maddə 49; 2010, № 4, maddə 265; 2012, № 1, maddə 2, № 7, maddə 651; 2013, № 12, maddə 1479; 2014, № 2, maddə 78, № 7, maddə 769, № 11, maddə 1356, № 12, maddə 1526; 2015, № 11, maddə 1259; 2016, № 4, maddə 644, № 10, maddə 1606; 2017, № 5, maddələr 709, 724, № 10, maddə 1775; 2018, № 12 (I kitab), maddələr 2471, 2531; 2019, № 1, maddələr 16, 21, № 2, maddə 176, № 6, maddə 999, № 7, maddə 1203; 2020, № 6, maddə 675, № 8, maddə 1017, № 11, maddə 1335) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.4.4-1-ci maddə ləğv edilsin.

2.2. 8.1-ci maddədə "40" rəqəmi "3" rəqəmi ilə, 8.3-cü maddədə "20 rəqəmi "3" rəqəmi ilə, 8. 4-cü maddədə "10" rəqəmi "3" rəqəmi ilə əvəz edilsin.

2.3. 8.2-ci maddədənin birinci cümləsində "30" rəqəmi "bir" sözü ilə əvəz edilsin, ikinci cümlə çıxarılsın

2.4. 11.3.1-ci maddədən "və digər qanunvericilik aktlarına" sözləri çıxarılsın, 11.3.2-1-ci maddə ləğv edilsin.

2.5. 14.2.3-cü maddədən "qurumun əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan təsisçisinin (təsisçilərinin) daimi yaşamaq üçün icazə müddətinin bitməsi tarixi, ictimai birliklərin üzvlərinin sayı," 14.2.4-cü maddədən "və onun müavininin", "eləcə də rəhbərinin müavininin adı, soyadı, atasının adı, vətəndaşlığı, yaşayış yeri, habelə dövlət qeydiyyatı ilə əlaqədar bağlanmış sazişin qüvvədə olma müddəti," , 14.2.5-ci maddədən "qurumun əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan qanuni təmsilçisinin (təmsilçilərinin) daimi yaşamaq üçün icazə müddətinin bitməsi tarixi," sözləri çıxarılsın.

**Maddə 3.** "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 366; 2001, № 12, maddə 736; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 1; 2009, № 8, maddə 611; 2013, № 3, maddə 215; 2014, № 2, maddə 82, № 11, maddələr 1358, 1369; 2017, № 3, maddə 335; 2019, № 1, maddə 27, Azərbaycan Respublikasının 30 iyun 2020-ci il tarixli,158-VIQD nömrəli qanunu) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci maddə üzrə:

3.1.1. 5-ci hissəsinin 1-ci cümləsindən "("Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sazişi bağlamış xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri) Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnu əldə etdikdən sonra"sözləri və 2-ci cümlə çıxarılsın.

3.1.1. 5-1-ci hissə ləğv edilsin

3.2. 3-cü maddənin 2-ci hissəsinin 5-ci abzasından "(həmin resipiyentlər yalnız bu Qanunun 2-ci maddəsinin 2-ci və 4-cü hissələrində nəzərdə tutulmuş donorlardan, habelə xarici hüquqi şəxslərin Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış filial və nümayəndəlikləri ("Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sazişi bağlamış xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri) olan donorlardan qrant ala bilərlər);" sözləri çıxarılsın.

3.3. 4-cü maddə üzrə:

4.3.1. 4-cü hissənin 1-ci və 2-ci cümləsində "qeydə alınması" sözləri "məlumat" sözü ilə əvəz edilsin, 3-cü cümləsində "qrant müqaviləsini (qərarını) qeydə alan orqana" sözləri "müvafiq icra hakimiyyəti orqanina" sözləri ilə əvəz edilsin.

4.3.2. 4-1-ci hissəsində "qeydə alınması" sözləri "məlumat üçün təqdim edilməsi" sözləri ilə əvəz edilsin.

4.3.3. 4-2-ci hissə ləğv edilsin.

4.3.4. 4-3-cü hissə 4-2-ci hissə hesab olunsun və həmin hissədə "müqavilələrinin (qərarlarının)" sözləri "müqavilələrini (qərarlarını)" sözləri ilə, "qeydə alınması üçün müraciət" sözləri "məlumat üçün təqdim" sözləri ilə əvəz edilsin.

4.3.5. 5-ci hissənin birinci cümləsi çıxarılsın.

**Maddə 4.** "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 58; 2010, № 3, maddə 178, № 4, maddə 276; 2011, № 12, maddə 1104; 2013, № 11, maddə 1274; 2014, № 2, maddə 81, № 10, maddə 1159, № 11, maddə 1361; 2015, № 11, maddə 1294; 2016, № 3, maddə 413; 2017, № 5, maddələr 696, 711, № 7, maddə 1295; 2017, № 11, maddə 1959; 2018, № 7, I kitab, maddə 1407; Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1273-VQD nömrəli, 30 noyabr tarixli 1365-VQD nömrəli və 28 dekabr 1407-VQD nömrəli qanunları) 4.1.9-cu maddəsinə "köçürən" sözündən sonra ", illik dövriyyəsi 50 min manatdan çox olan" sözləri əlavə edilsin.

**Maddə 5.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138; Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 182-VIQD, 183-VIQD və 186-VIQD nömrəli qanunları, Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 208-VIQD nömrəli qanunu, Azərbaycan Respublikasının 2020-ci il 18 dekabr tarixli 224-VIQD nömrəli qanunu ) aşağıdakı dəyişikliklər edilsin:

1. 465.1 və 466.1-ci maddələrin dispozisiyasından “və ya qeyri-hökumət təşkilatı, o cümlədən xarici dövlətin qeyri-hökumət təşkilatının filial və nümayəndəliyi” sözləri çıxarılsın

2. 579-cu maddədə “vəzifəli şəxslər min manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min” sözləri “vəzifəli şəxslər yüz manatdan üç yüz manatadək məbləğdə, hüquqi şəxslər üç yüz manatdan beş yüz” sözləri ilə əvəz edilsin.

3. 580-ci maddə ləğv edilsin

4. 581-ci maddə üzrə:

4.1. Maddənin mətni 581.1-ci maddə hesab olunsun, həmin maddənin sanksiyasında “vəzifəli şəxslər min manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min” sözləri “vəzifəli şəxslər yüz manatdan üç yüz manatadək məbləğdə, hüquqi şəxslər üç yüz manatdan beş yüz” sözləri ilə əvəz edilsin.

4.2. Aşağıdakı məzmunda 581.2-ci maddə əlavə olunsun:

“581.2. Qeyri-hökumət təşkilatı, xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi müvafiq icra hakimiyyəti orqanının xəbərdarlığında və ya göstərişində bildirilmiş pozuntuların müəyyən edilmiş müddətdə aradan qaldırılmamasına görə inzibati məsuliyyətə cəlb edildikdən sonra müvafiq qurum tərəfindən həmin pozuntular aradan qaldırılmadıqda –

vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, hüquqi şəxslər beş yüz manatdan səkkiz yüz manatadək məbləğdə cərimə edilir.”

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, _____________2021-ci il

№

Cədvəl 1

**“Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanunu üzrə**

**Müqayisəli cədvəl**

| | Qüvvədə olan mətn | Təklif olunan mətn |
|---|---|---|
| 1 | **Maddə 2. Qeyri-hökumət təşkilatı**<br>2.4. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin və bələdiyyələrin seçkilərində iştirak edə bilməz, siyasi partiyalara maliyyə və başqa maddi yardım göstərə bilməz. Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun olaraq qeyri-hökumət təşkilatları Azərbaycan Respublikasında keçirilən prezident seçkiləri, Milli Məclisə seçkiləri və bələdiyyələrə seçkiləri müşahidə edə və exit-poll həyata keçirə bilərlər. Xarici hüquqi şəxslər Azərbaycan Respublikası Prezidentinin seçkiləri, Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər və bələdiyyə seçkiləri zamanı exit-polla əlaqədar tədbirlərdə yalnız Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatları ilə birlikdə iştirak edə bilərlər. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının qanunlarında və öz nizamnaməsində nəzərdə tutulmuş qaydada hüquqi normativ aktların təkmilləşdirilməsi təklifləri ilə çıxış edə bilər. | **Maddə 2. Qeyri-hökumət təşkilatı**<br>2.4. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin və bələdiyyələrin seçkilərində iştirak edə bilməz, siyasi partiyalara maliyyə və başqa maddi yardım göstərə bilməz. Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun olaraq qeyri-hökumət təşkilatları Azərbaycan Respublikasında keçirilən prezident seçkiləri, Milli Məclisə seçkiləri və bələdiyyələrə seçkiləri müşahidə edə və exit-poll həyata keçirə bilərlər. Xarici hüquqi şəxslər Azərbaycan Respublikası Prezidentinin seçkiləri, Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər və bələdiyyə seçkiləri zamanı exit-polla əlaqədar tədbirlərdə yalnız Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatları ilə birlikdə iştirak edə bilərlər. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının qanunlarında və öz nizamnaməsində nəzərdə tutulmuş qaydada hüquqi normativ aktların təkmilləşdirilməsi təklifləri ilə çıxış edə bilər. **“Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının qanunvericiliyi və öz nizamnaməsində nəzərdə tutulmuş qaydada fəaliyyət sahəsi üzrə ictimai nəzarətin həyata keçirilməsində iştirak edə bilər.”** |
| 2. | **Maddə 9. Qeyri-hökumət təşkilatlarının təsisçiləri**<br>9.1. Qeyri-hökumət təşkilatlarının təsisçiləri hüquqi şəxslər (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) və ya 18 yaşına (gənclərin ictimai birliklərinin təsisçiləri - 16 yaşına) çatmış fiziki şəxslər ola bilərlər.<br><br>**9.1-1. Azərbaycan Respublikasında daimi yaşamaq hüququ olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində qeyri-hökumət təşkilatının təsisçisi və qanuni təmsilçisi ola bilərlər.** | **Maddə 9. Qeyri-hökumət təşkilatlarının təsisçiləri**<br>9.1. Qeyri-hökumət təşkilatlarının təsisçiləri hüquqi şəxslər (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) və ya 18 yaşına (gənclərin ictimai birliklərinin təsisçiləri - 16 yaşına) çatmış fiziki şəxslər ola bilərlər.<br><br>**Ləğv olunur** |
| 3 | **Maddə 12. Qeyri-hökumət təşkilatının yaradılması** | **Maddə 12. Qeyri-hökumət təşkilatının yaradılması** |

| | | |
|---|---|---|
| | **12.3. Azərbaycan Respublikasında xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin dövlət qeydiyyatı həmin təşkilatlarla bağlanmış saziş əsasında həyata keçirilir. Sazişdə onun qüvvədə olma müddəti göstərilməlidir.** | **Ləğv olunur** |
| 4 | **Maddə 13. Qeyri-hökumət təşkilatının nizamnaməsi**<br><br>**13.3. Qeyri-hökumət təşkilatlarının nizamnamələrində dövlət və yerli özünüidarə orqanlarının səlahiyyətlərinin mənimsənilməsinə, habelə dövlət nəzarəti və yoxlama funksiyalarının nəzərdə tutulmasına yol verilmir** | **Maddə 13. Qeyri-hökumət təşkilatının nizamnaməsi**<br><br>**Ləğv olunur** |
| 5. | **Maddə 24-1. İanələr və qrantlar**<br>24-1.1. İanə - qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin qarşısında hər hansı məqsədə nail olmaq vəzifəsi qoymadan ona Azərbaycan Respublikasının vətəndaşı, yaxud Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxs, xarici hüquqi şəxsin filial və ya nümayəndəliyi **(bu Qanunun 12.3-cü maddəsində nəzərdə tutulmuş sazişi bağlamış xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi)** tərəfindən bu Qanunla nəzərdə tutulmuş qaydada maliyyə vəsaiti şəklində və (və ya) başqa maddi formada verilən yardımdır.<br>........<br>**24-1.4. İanə edilən pul vəsaitləri qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin bank hesabına köçürmə yolu ilə qəbul edilir. Nizamnaməsinə əsasən başlıca məqsədi xeyriyyəçilik olan qeyri-hökumət təşkilatı, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri iki yüz manatadək ianəni nağd şəkildə qəbul edə bilər.**<br><br>**24-1.5. Qeyri-hökumət təşkilatı, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri qəbul etdiyi** | 24-1.1. İanə - qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin qarşısında hər hansı məqsədə nail olmaq vəzifəsi qoymadan ona Azərbaycan Respublikasının vətəndaşı, yaxud Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxs, xarici hüquqi şəxsin filial və ya nümayəndəliyi tərəfindən bu Qanunla nəzərdə tutulmuş qaydada maliyyə vəsaiti şəklində və (və ya) başqa maddi formada verilən yardımdır.<br><br>**24-1.4. İanə edilən pul vəsaitləri qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin bank hesabına köçürmə yolu ilə və yaxud nağd şəkildə qəbul edilir. Nağd şəkildə qəbul edilən ianələrin uçotu müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydada aparılmalıdır.**<br><br>**24-1.5. Qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin qəbul etdiyi ianələrin** |

| | | |
|---|---|---|
| | **ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanına təqdim edir. Barəsində məlumat təqdim edilməmiş ianələr üzrə bank əməliyyatları və hər hansı digər əməliyyatlar aparıla bilməz.** | **məbləği və ianəni vermiş şəxslər barədə qurumun illik maliyyə hesabatına daxil edilir.** |
| 6. | **Maddə 24-2. Qeyri-hökumət təşkilatı tərəfindən xidmətlərin göstərilməsi və işlərin görülməsi**<br><br>**24-2.1. Qeyri-hökumət təşkilatı tərəfindən bu Qanunun 24.0.3-cü maddəsində nəzərdə tutulmuş xidmətlərin göstərilməsi və işlərin görülməsi müqavilə əsasında həyata keçirilir. Xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilə qeydə alınması üçün qeyri-hökumət təşkilatı tərəfindən müvafiq icra hakimiyyəti orqanına təqdim olunur.**<br>**24-2.2. Müqavilə olmadan və ya qeydiyyata alınmamış müqavilə üzrə xidmətlər göstərən və ya işlər görən qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən məsuliyyət daşıyır.** | **Ləğv olunur** |
| 7. | **Maddə 24-3. Qrant müqavilələrinin (qərarlarının), xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydə alınmasının və ianələr üzrə məlumatların təqdim edilməsinin elektron müraciət əsasında aparılması**<br>Qeyri-hökumət təşkilatları qrant müqavilələrinin (qərarlarının), xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydə alınmasının və qəbul etdikləri ianələr üzrə məlumatların təqdim edilməsinin müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi vasitəsilə elektron qaydada həyata keçirilməsi üçün müraciət edə bilərlər. | **Maddə 24-3. Qrant müqavilələrinin (qərarlarının) və ianələr üzrə məlumatların elektron qaydada təqdim edilməsi**<br><br>Qeyri-hökumət təşkilatları qrant müqavilələrini (qərarlarını) və qəbul etdikləri ianələr üzrə məlumatları müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi vasitəsilə elektron qaydada təqdim edə bilərlər. |
| 8 | **Maddə 30-1. Qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyi-nə uyğunluğunun öyrənilməsi**<br>**30-1.1. Qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-** | **Ləğv olunur** |

| | | |
|---|---|---|
| | **hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.**<br>**30-1.2. Müvafiq icra hakimiyyəti orqanı qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsi işinə aidiyyəti dövlət orqanlarının və digər qeyri-hökumət təşkilatlarının nümayəndələrini cəlb etmək səlahiyyətinə malikdir.**<br>**30-1.3. Qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsi üçün maneələr yaradan fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən məsuliyyət daşıyırlar.** | |
| 8 | **Maddə 31. Qeyri-hökumət təşkilatının məsuliyyəti**<br>31.3. Aşağıda göstərilən hallarda qeyri-hökumət təşkilatının, habelə xarici qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin fəaliyyəti məhkəmə qərarı ilə bir ilədək müddətə dayandırıla bilər:<br><br>31.3.2. qeyri-hökumət təşkilatı, xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi müvafiq icra hakimiyyəti orqanının xəbərdarlığında və ya göstərişində bildirilmiş pozuntuların müəyyən edilmiş müddətdə aradan qaldırılmamasına görə inzibati məsuliyyətə cəlb edildikdən sonra qurum tərəfindən həmin pozuntular aradan qaldırılmadıqda;<br><br>**31.3.3. qeyri-hökumət təşkilatının icra orqanı tərəfindən təşkilatın üzvlərinin hüquqlarının pozulması müəyyən edildikdə.** | **Maddə 31. Qeyri-hökumət təşkilatının məsuliyyəti**<br>31.3. Aşağıda göstərilən hallarda qeyri-hökumət təşkilatının, habelə xarici qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin fəaliyyəti məhkəmə qərarı ilə bir ilədək müddətə dayandırıla bilər:<br><br>31.3.2. qeyri-hökumət təşkilatı, xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi müvafiq icra hakimiyyəti orqanının xəbərdarlığında və ya göstərişində bildirilmiş pozuntuların müəyyən edilmiş müddətdə aradan qaldırılmamasına görə **iki dəfə** inzibati məsuliyyətə cəlb edildikdən sonra qurum tərəfindən həmin pozuntular aradan qaldırılmadıqda;<br><br>**Ləğv olunur** |
| 9 | **Maddə 10. İctimai birliklərin üzvləri**<br>10.5. **Qeyri-hökumət təşkilatlarının icra orqanları tərəfindən təşkilatın üzvlərinin hüquqlarının pozulmasına yol verilməməlidir. Qeyri-hökumət təşkilatları-nın üzvləri ilə təşkilat arasında yaranan mübahisələr** | **Maddə 10. İctimai birliklərin üzvləri**<br>“10.5. Qeyri-hökumət təşkilatlarının üzvləri ilə təşkilat arasında yaranan mübahisələr qeyri-hökumət təşkilatının nizamnaməsində nəzərdə tutulan qaydada həll olunur. Qeyri-hökumət təşkilatlarının icra orqanları tərəfindən |

| | | |
|---|---|---|
| | **məhkəmə qaydasında həll olunur. Məhkəmə tərəfindən işə baxılarkən təşkilatın üzvlərinin hüquqlarının pozulduğu müəyyən edildikdə qeyri-hökumət təşkilatı-nın fəaliyyəti məhkəmə qərarı ilə bu Qanunun 31.3-cü maddəsində nəzərdə tutulmuş müddətə dayandırıla bilər.** | pozulmuş hüquqların məhkəmə qaydasında müdafiəsinə təminat verilir.” |
| 10 | **Maddə 16. Qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatı**<br>16.3. Qeyri-hökumət təşkilatlarının və xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin təsis sənədlərində qanunvericiliyə uyğunsuzluq aşkar edildikdə müvafiq icra hakimiyyəti orqanı **həmin qurumlardan 30 gün** müddətində təsis sənədlərinin qanunvericiliyə uyğunlaşdırılmasını tələb edir. | **Maddə 16. Qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatı**<br>16.3. Qeyri-hökumət təşkilatlarının və xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin təsis sənədlərində qanunvericiliyə uyğunsuzluq aşkar edildikdə müvafiq icra hakimiyyəti orqanı həmin **qeyri-hökumət təşkilatlından 3 gün, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliyindən isə** 30 gün müddətində təsis sənədlərinin qanunvericiliyə uyğunlaşdırılmasını tələb edir. |

Cədvəl 2.

**“Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanunu üzrə**
**Müqayisəli cədvəl**

| | **Qüvvədə olan mətn** | **Təklif olunan mətn** |
|---|---|---|
| 1. | Maddə 5. Hüquqi şəxs statusu almaq istəyən qurumun dövlət qeydiyyatına alınması barədə müraciət<br><br>5.1. Hüquqi şəxs statusu almaq istəyən qurumun dövlət qeydiyyatına alınması üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına ərizə ilə müraciət edilməlidir.<br>5.4. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:<br>**5.4.4-1. qeyri-hökumət təşkilatının təsisçisi (təsisçiləri) və qanuni təmsilçisi (təmsilçiləri), habelə xarici qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin qanuni təmsilçisi (təmsilçiləri) Azərbaycan Respublikasında daimi yaşamaq hüququ olan əcnəbilər və vətəndaşlığı** | Ləğv olunur |

| | | |
|---|---|---|
| | **olmayan şəxslər olduqda – onların daimi yaşamaq hüququnu təsdiq edən sənəd;** | |
| | M a d d ə 8 . **Hüquqi şəxs statusu almaq istəyən qeyri-kommersiya qurumunun dövlət qeydiyyatına alınması qaydası**<br>8.1. Hüquqi şəxs statusu almaq istəyən qeyri-kommersiya qurumunun, habelə xarici qeyri-kommersiya hüquqi şəxsinin nümayəndəlik və ya filialının dövlət qeydiyyatı **40** gündən gec olmayaraq həyata keçirilməlidir.<br>8.2. Dövlət qeydiyyatına alınması üçün ərizə və ona əlavə edilməli olan sənədlər Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən baxılması üçün qəbul edilir və **30** gün müddətində onların Azərbaycan Respublikasının Konstitusiyasına, bu Qanuna və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğunluğu yoxlanılır. **Müstəsna hallarda yoxlama zamanı əlavə araşdırma aparılması zərurəti yarandıqda, bu müddət daha 30 günə qədər artırıla bilər.**<br>8.3. Təqdim edilmiş sənədlərdə dövlət qeydiyyatına alınması üçün imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı həmin sənədləri müraciət etmiş şəxsə qaytarmaqla, bu çatışmazlıqların aradan qaldırılması üçün əlavə olaraq **20** gün müddət təyin edir. İmtinaya səbəb olmayan bütün çatışmazlıqlar eyni vaxtda aşkar edilməli və aradan qaldırılması üçün müraciət edənə təqdim edilməlidir.<br>8.4. Təqdim edilmiş sənədlər yoxlanıldıqdan və ya həmin sənədlərdə aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldıqdan sonra **10** gündən gec olmayaraq müraciət edənə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya dövlət qeydiyyatına alınmasından imtina (qanunvericiliyin həmin imtinaya səbəb olmuş müddəaları göstərilməklə və izah edilməklə) barədə yazılı məlumat verilir. | M a d d ə 8 . **Hüquqi şəxs statusu almaq istəyən qeyri-kommersiya qurumunun dövlət qeydiyyatına alınması qaydası**<br>8.1. Hüquqi şəxs statusu almaq istəyən qeyri-kommersiya qurumunun, habelə xarici qeyri-kommersiya hüquqi şəxsinin nümayəndəlik və ya filialının dövlət qeydiyyatı **3** gündən gec olmayaraq həyata keçirilməlidir.<br>8.2. Dövlət qeydiyyatına alınması üçün ərizə və ona əlavə edilməli olan sənədlər Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən baxılması üçün qəbul edilir və **bir** gün müddətində onların Azərbaycan Respublikasının Konstitusiyasına, bu Qanuna və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğunluğu yoxlanılır.<br>8.3. Təqdim edilmiş sənədlərdə dövlət qeydiyyatına alınması üçün imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı həmin sənədləri müraciət etmiş şəxsə qaytarmaqla, bu çatışmazlıqların aradan qaldırılması üçün əlavə olaraq **3** gün müddət təyin edir. İmtinaya səbəb olmayan bütün çatışmazlıqlar eyni vaxtda aşkar edilməli və aradan qaldırılması üçün müraciət edənə təqdim edilməlidir.<br>8.4. Təqdim edilmiş sənədlər yoxlanıldıqdan və ya həmin sənədlərdə aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldıqdan sonra **3** gündən gec olmayaraq müraciət edənə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya dövlət qeydiyyatına alınmasından imtina (qanunvericiliyin həmin imtinaya səbəb olmuş müddəaları göstərilməklə və izah edilməklə) barədə yazılı məlumat verilir. |
| | M a d d ə 1 1 . **Qanunun tətbiqi zamanı qanunçuluğun təminatı**<br>11.3. Hüquqi şəxs statusu almaq istəyən qurumun, habelə xarici hüquqi şəxsin nümayəndəlik və ya filialının dövlət qeydiyyatına alınmasından, Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxsin nümayəndəlik və ya filialının dövlət reyestrinə daxil edilməsindən, habelə təsis sənədlərində edilmiş dəyişikliklərin və reyestrdə qeydə alınmış faktların sonrakı dəyişikliyinin dövlət qeydiyyatına alınmasından yalnız | M a d d ə 1 1 . **Qanunun tətbiqi zamanı qanunçuluğun təminatı**<br>11.3. Hüquqi şəxs statusu almaq istəyən qurumun, habelə xarici hüquqi şəxsin nümayəndəlik və ya filialının dövlət qeydiyyatına alınmasından, Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxsin nümayəndəlik və ya filialının dövlət reyestrinə daxil edilməsindən, habelə təsis sənədlərində edilmiş dəyişikliklərin və reyestrdə qeydə alınmış faktların sonrakı dəyişikliyinin dövlət qeydiyyatına alınmasından yalnız aşağıdakı hallarda imtina edilə bilər: |

| | | |
|---|---|---|
| | aşağıdakı hallarda imtina edilə bilər:<br>**11.3.1. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təqdim olunmuş sənədlər Azərbaycan Respublikasının Konstitusiyasına, bu Qanuna və digər qanunvericilik aktlarına zidd olduqda;**<br>......<br>**11.3.2-1. Qeyri-hökumət təşkilatlarının nizamnamələrində dövlət və yerli özünüidarə orqanlarının səlahiyyətlə-rinin mənimsənilməsi, habelə dövlət nəzarəti və yoxlama funksiyaları nəzərdə tutulduqda;** | **11.3.1. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təqdim olunmuş sənədlər Azərbaycan Respublikasının Konstitusiyasına, bu Qanuna zidd olduqda;**<br><br><br>Ləğv olunur |
| | M a d d ə 1 4 . **Dövlət reyestrinə daxil edilən məlumatlar**<br>14.2. Dövlət reyestrində hüquqi şəxslər, xarici hüquqi şəxslərin nümayəndəlik və ya filialları üçün bu Qanunun 14. 1-ci maddəsində nəzərdə tutulmuş məlumatlardan əlavə, hüquqi şəxsin təşkilati-hüquqi formasından asılı olaraq aşağıdakı məlumatlar göstərilməlidir:<br>14.2.3. qeyri-kommersiya təşkilatlarında - fəaliyyət predmeti və məqsədləri, fəaliyyət ərazisi, fəaliyyətinin dayandırılması və bərpa edilməsi, **qurumun əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan təsisçisinin (təsisçilərinin) daimi yaşamaq üçün icazə müddətinin bitməsi tarixi, ictimai birliklərin üzvlərinin sayı,** fondlarda - himayəçilər şurasının üzvləri, fondun nizamnamə kapitalı və təsisçilərin əmlak paylarının həcmi haqqında məlumatlar.<br>14.2.4. xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərində - Azərbaycan Respublikasında filial və ya nümayəndəliyi olan xarici qeyri-hökumət təşkilatının təsisçiləri, filial və ya nümayəndəliyin rəhbərinin **və onun müavininin** səlahiyyət müddəti, **eləcə də rəhbərinin müavininin adı, soyadı, atasının adı, vətəndaşlığı, yaşayış yeri, habelə dövlət qeydiyyatı ilə əlaqədar bağlanmış sazişin qüvvədə olma müddəti,** fəaliyyətinin dayandırılması və bərpa edilməsi barədə məlumatlar.<br>14.2.5. qeyri-hökumət təşkilatlarında və xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərində - qurumun icra orqanlarının tərkibi və səlahiyyət müddəti, **qurumun əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan qanuni təmsilçisinin (təmsilçilərinin) daimi yaşamaq üçün icazə müddətinin bitməsi tarixi,** ləğv edilmiş qurumun əmlak məsələlərinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunması, quruma edilmiş xəbərdarlıqlar, verilmiş göstərişlər və onların | M a d d ə 1 4 . **Dövlət reyestrinə daxil edilən məlumatlar**<br>14.2. Dövlət reyestrində hüquqi şəxslər, xarici hüquqi şəxslərin nümayəndəlik və ya filialları üçün bu Qanunun 14. 1-ci maddəsində nəzərdə tutulmuş məlumatlardan əlavə, hüquqi şəxsin təşkilati-hüquqi formasından asılı olaraq aşağıdakı məlumatlar göstərilməlidir:<br>14.2.3. qeyri-kommersiya təşkilatlarında - fəaliyyət predmeti və məqsədləri, fəaliyyət ərazisi, fəaliyyətinin dayandırılması və bərpa edilməsi, fondlarda - himayəçilər şurasının üzvləri, fondun nizamnamə kapitalı və təsisçilərin əmlak paylarının həcmi haqqında məlumatlar.<br><br>14.2.4. xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərində - Azərbaycan Respublikasında filial və ya nümayəndəliyi olan xarici qeyri-hökumət təşkilatının təsisçiləri, filial və ya nümayəndəliyin rəhbərinin səlahiyyət müddəti, fəaliyyətinin dayandırılması və bərpa edilməsi barədə məlumatlar.<br><br>14.2.5. qeyri-hökumət təşkilatlarında və xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərində - qurumun icra orqanlarının tərkibi və səlahiyyət müddəti, ləğv edilmiş qurumun əmlak məsələlərinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunması, quruma edilmiş xəbərdarlıqlar, verilmiş göstərişlər və onların icrası barədə, habelə fəaliyyətinin dayandırılmasına və bərpa edilməsinə dair məlumatlar. |

| | | |
|---|---|---|
| | icrası barədə, habelə fəaliyyətinin dayandırılmasına və bərpa edilməsinə dair məlumatlar. | |

Cədvəl 3.

**“Qrant haqqında” Azərbaycan Respublikasının Qanunu üzrə**
**Müqayisəli cədvəl**

| | Qüvvədə olan mətn | Təklif olunan mətn |
|---|---|---|
| 1 | **Maddə 2. Donor**<br><br>5. Beynəlxalq təşkilatlar və onların nümayəndəlikləri, xarici hökumətlər və onların nümayəndəlikləri, xeyriyyəçilik, humanitar inkişaf və başqa ictimai yönümlü beynəlxalq təşkilatlar, maliyyə-kredit institutları, təhsil, elm, səhiyyə, incəsənət və idmanın inkişafı sahələrində fəaliyyət göstərən xarici ictimai təşkilatlar, o cümlədən fondlar, assosiasiyalar, federasiyalar və komitələr, həmçinin xarici hüquqi şəxslərin Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış filial və nümayəndəlikləri **(“Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sazişi bağlamış xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri) Azərbaycan Respublik-asının ərazisində qrant vermək hüququnu əldə etdikdən sonra** donor qismində çıxış edə bilərlər. **Qrant vermək hüququnun əldə edilməsi üçün müvafiq icra hakimiyyəti orqanının qrantın maliyyə-iqtisadi məqsədəmüva-fiqliyinə dair rəyi tələb olunur.**<br>**5-1. Bu maddənin 5-ci hissəsində nəzərdə tutulmuş donorlar tərəfindən qrant vermək hüququnun əldə edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.** | **Maddə 2. Donor**<br><br>5. Beynəlxalq təşkilatlar və onların nümayəndəlikləri, xarici hökumətlər və onların nümayəndəlikləri, xeyriyyəçilik, humanitar inkişaf və başqa ictimai yönümlü beynəlxalq təşkilatlar, maliyyə-kredit institutları, təhsil, elm, səhiyyə, incəsənət və idmanın inkişafı sahələrində fəaliyyət göstərən xarici ictimai təşkilatlar, o cümlədən fondlar, assosiasiyalar, federasiyalar və komitələr, həmçinin xarici hüquqi şəxslərin Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış filial və nümayəndəlikləri donor qismində çıxış edə bilərlər. |
| 2. | **Maddə 3. Resipiyent**<br>2. Aşağıdakılar resipiyent ola bilərlər:<br>Azərbaycan Respublikasında fəaliyyət göstərən, nizamnaməsinə əsasən | **Maddə 3. Resipiyent**<br>2. Aşağıdakılar resipiyent ola bilərlər:<br>Azərbaycan Respublikasında fəaliyyət göstərən, nizamnaməsinə əsasən başlıca |

| | | |
|---|---|---|
| | başlıca məqsədi xeyriyyəçilik, yaxud qrant predmeti ola bilən layihə və proqramların həyata keçirilməsi olan və qrant almaqla birbaşa mənfəət götürmək məqsədi güdməyən rezident və qeyri-rezident olan hüquqi şəxslər, onların filial, nümayəndəlik və şöbələri **(həmin resipiyentlər yalnız bu Qanunun 2-ci maddəsinin 2-ci və 4-cü hissələrində nəzərdə tutulmuş donorlardan, habelə xarici hüquqi şəxslərin Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış filial və nümayəndəlikləri ("Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sazişi bağlamış xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri) olan donorlardan qrant ala bilərlər);** | məqsədi xeyriyyəçilik, yaxud qrant predmeti ola bilən layihə və proqramların həyata keçirilməsi olan və qrant almaqla birbaşa mənfəət götürmək məqsədi güdməyən rezident və qeyri-rezident olan hüquqi şəxslər, onların filial, nümayəndəlik və şöbələri |
| | **Maddə 4. Qrant vermək üçün qanuni əsas**<br><br>4. Azərbaycan Respublikasının hüquqi və ya fiziki şəxsi, habelə Azərbaycan Respublikası-nın hüquqi şəxsinin filial və ya nümayəndə-liyi olan donorlar tərəfindən xarici resipiyentlərə qrant verilməsi haqqında müqavilələr (qərarlar) **qeydə alınması** üçün donorlar tərəfindən müvafiq icra hakimiyyəti orqanına təqdim olunur. Azərbaycan Respub-likasının resipiyentlərinin aldıqları qrantlar haqqında müqavilələr (qərarlar) **qeydə alınması** üçün resipiyentlər tərəfindən müvafiq icra hakimiyyəti orqanına təqdim olunur. Dövlət büdcəsi hesabına verilmiş qrant barədə müvafiq məlumat **qrant müqaviləsini (qərarını) qeydə alan orqana** donor tərəfindən təqdim olunur.<br><br>4-1. Bu maddədə qrant müqavilələrinin (qərarlarının) **qeydə alınması** ilə bağlı göstərilmiş tələblər sub-qrantlara və qrant müqaviləsi (qərarı) üzrə əlavə müqavilələrin, habelə müqavilələrin (qərarların) müddətinin, məqsədinin, məbləğinin dəyişdirilməsi hallarına da şamil olunur.<br><br>**4-2. Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.**<br><br>4-3. Qeyri-hökumət təşkilatları **qrant müqavilələrinin (qərarlarının)** "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun 24-3-cü maddəsinə uyğun olaraq | **Maddə 4. Qrant vermək üçün qanuni əsas**<br><br>4. Azərbaycan Respublikasının hüquqi və ya fiziki şəxsi, habelə Azərbaycan Respublikasının hüquqi şəxsinin filial və ya nümayəndəliyi olan donorlar tərəfindən xarici resipiyentlərə qrant verilməsi haqqında müqavilələr (qərarlar) **məlumat** üçün donorlar tərəfindən müvafiq icra hakimiyyəti orqanına təqdim olunur. Azərbaycan Respublikasının resipiyentlərinin aldıqları qrantlar haqqında müqavilələr (qərarlar) **məlumat** üçün resipiyentlər tərəfindən müvafiq icra hakimiyyəti orqanına təqdim olunur. Dövlət büdcəsi hesabına verilmiş qrant barədə müvafiq məlumat **müvafiq icra hakimiyyəti orqanına** donor tərəfindən təqdim olunur.<br><br>4-1. Bu maddədə qrant müqavilələrinin (qərarlarının) məlumat üçün təqdim edilməsi ilə bağlı göstərilmiş tələblər sub-qrantlara və qrant müqaviləsi (qərarı) üzrə əlavə müqavilələrin, habelə müqavilələrin (qərarların) müddətinin, məqsədinin, məbləğinin dəyişdirilməsi hallarına da şamil olunur.<br><br>4-2. Qeyri-hökumət təşkilatları **qrant müqavilələrini (qərarlarını)** "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun 24-3-cü maddəsinə uyğun olaraq müvafiq icra |

| | | |
|---|---|---|
| | müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi vasitəsilə **qeydə alınması üçün müraciət** edə bilərlər.<br>5. **Qeydə alınmayan qrant verilməsi və ya alınması haqqında müqavilələr (qərarlar) üzrə bank əməliyyatları və hər hansı digər əməliyyatlar aparıla bilməz.** Müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri tərəfindən verilmiş və Azərbaycan Respublikasının resipiyentləri tərəfindən alınmış qrantlar haqqında ildə bir dəfədən az olmayaraq, kütləvi informasiya vasitələrində ümumiləşdirilmiş məlumat verməlidir. | hakimiyyəti orqanının elektron məlumat sistemi vasitəsilə **məlumat üçün təqdim** edə bilərlər.<br><br>5. Müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri tərəfindən verilmiş və Azərbaycan Respublikasının resipiyentləri tərəfindən alınmış qrantlar haqqında ildə bir dəfədən az olmayaraq, kütləvi informasiya vasitələrində ümumiləşdirilmiş məlumat verməlidir. |

Cədvəl 4.

**“Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” qanun üzrə**

**Müqayisəli cədvəl**

| | Qüvvədə olan mətn | Təklif olunan mətn |
|---|---|---|
| | **Maddə 4. Monitorinq iştirakçıları**<br><br>4.1. Monitorinq iştirakçıları aşağıdakılardır:<br><br>4.1.9. öz fəaliyyətinin tərkib hissəsi kimi vəsait alan, toplayan, verən və ya vəsait köçürən hər hansı qeyri-hökumət təşkilatı, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliyi və ya dini təşkilat; | **Maddə 4. Monitorinq iştirakçıları**<br><br>4.1. Monitorinq iştirakçıları aşağıdakılardır:<br><br>4.1.9. öz fəaliyyətinin tərkib hissəsi kimi vəsait alan, toplayan, verən və ya vəsait köçürən, illik dövriyyəsi 50 min manatdan çox olan” hər hansı qeyri-hökumət təşkilatı, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliyi və ya dini təşkilat; |

Cədvəl 5

**İnzibat Xətalar Məcəlləsi üzrə**
**Müqayisəli arayış**

| | Qüvvədə olan mətn | Təklif olunan mətn |
|---|---|---|
| 1. | **Maddə 466. İanə edilən pul vəsaitlərinin nağd şəkildə verilməsi və qəbul edilməsi**<br><br>466.1. İanə edilən pul vəsaitlərinin siyasi partiyaya **və ya qeyri-hökumət təşkilatına, o cümlədən xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinə** nağd şəkildə verilməsinə görə -<br>fiziki şəxslər iki yüz əlli manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər yeddi yüz əlli manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər üç min beş yüz manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.<br>466.2. İanə edilən pul vəsaitlərinin siyasi partiya **və ya qeyri-hökumət təşkilatı, o cümlədən xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi** tərəfindən nağd şəkildə qəbul edilməsinə görə -<br>vəzifəli şəxslər min manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər yeddi min manatdan on min manatadək məbləğdə cərimə edilir.<br>**Qeyd: Azərbaycan Respublikasında fəaliyyət göstərən, nizamnaməsinə əsasən başlıca məqsədi xeyriyyəçilik olan qeyri-hökumət təşkilatına nağd şəkildə verilən və həmin təşkilat tərəfindən nağd şəkildə qəbul edilən iki yüz manatadək ianələrə bu maddənin qüvvəsi şamil edilmir.** | **Maddə 466. İanə edilən pul vəsaitlərinin nağd şəkildə verilməsi və qəbul edilməsi**<br><br>466.1. İanə edilən pul vəsaitlərinin siyasi partiyaya nağd şəkildə verilməsinə görə -<br>fiziki şəxslər iki yüz əlli manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər yeddi yüz əlli manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər üç min beş yüz manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.<br><br>466.2. İanə edilən pul vəsaitlərinin siyasi partiya tərəfindən nağd şəkildə qəbul edilməsinə görə -<br>vəzifəli şəxslər min manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər yeddi min manatdan on min manatadək məbləğdə cərimə edilir. |
| 2. | Maddə 579. Qeyri-hökumət təşkilatları haqqında qanunvericiliyin pozulması<br>Qeyri-hökumət təşkilatları, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri tərəfindən qanunla müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmamış dəyişikliklər (təsis sənədlərində edilmiş və ya hüquqi şəxslərin dövlət reyestrində əvvəllər qeydə alınmış faktların sonrakı dəyişikliyi) əsasında hər hansı fəaliyyətin həyata keçirilməsinə, | Maddə 579. Qeyri-hökumət təşkilatları haqqında qanunvericiliyin pozulması<br>Qeyri-hökumət təşkilatları, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri tərəfindən qanunla müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmamış dəyişikliklər (təsis sənədlərində edilmiş və ya hüquqi şəxslərin dövlət reyestrində əvvəllər qeydə alınmış faktların sonrakı dəyişikliyi) əsasında hər hansı fəaliyyətin həyata keçirilməsinə, |

| | | |
|---|---|---|
| | ictimai birlik tərəfindən onun üzvlərinin reyestrinin aparılmamasına, sahibkarlıq fəaliyyəti nəticəsində əldə edilmiş gəlirin təşkilatın məqsədlərinə yönəldilməməsinə, könüllü fəaliyyətə cəlb edilmiş şəxslərlə müqavilələrin bağlanılmamasına, nizamnaməsində (əsasnaməsində) nəzərdə tutulmuş məqsədlərə zidd fəaliyyət göstərməsinə görə-<br><br>**vəzifəli şəxslər min manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min manatadək** məbləğdə cərimə edilir. | ictimai birlik tərəfindən onun üzvlərinin reyestrinin aparılmamasına, sahibkarlıq fəaliyyəti nəticəsində əldə edilmiş gəlirin təşkilatın məqsədlərinə yönəldilməməsinə, könüllü fəaliyyətə cəlb edilmiş şəxslərlə müqavilələrin bağlanılmamasına, nizamnaməsində (əsasnaməsində) nəzərdə tutulmuş məqsədlərə zidd fəaliyyət göstərməsinə görə-<br><br>**vəzifəli şəxslər yüz manatdan üç yüz manatadək məbləğdə, hüquqi şəxslər üç yüz manatdan beş yüz manatadək** məbləğdə cərimə edilir. |
| 3. | **Maddə 580. Qeyri-hökumət təşkilatlarının, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və qanunvericiliyə uyğunluğunun öyrənilməsinə maneələrin törədilməsi**<br>**Müvafiq icra hakimiyyəti orqanı tərəfindən qeyri-hökumət təşkilatlarının, xarici qeyri-hökumət təşkilatının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsinə maneələrin yaradılmasına, o cümlədən sorğulara cavab verilməməsinə, tələb olunan sənədlərin və məlumatların təqdim edilməməsinə, yanlış məlumatların verilməsinə görə-**<br><br>**vəzifəli şəxslər min manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə edilir.** | Ləğv olunur |
| 4. | **Maddə 581. Qeyri-hökumət təşkilatları, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri tərəfindən müvafiq icra hakimiyyəti orqanının xəbərdarlığında və ya göstərişində bildirilmiş pozuntuların vaxtında aradan** | **Maddə 581. Qeyri-hökumət təşkilatları, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri tərəfindən müvafiq icra hakimiyyəti orqanının xəbərdarlığında və ya göstərişində bildirilmiş pozuntuların vaxtında aradan** |

| | | |
|---|---|---|
| | **qaldırılmaması**<br><br>Qeyri-hökumət təşkilatları, xarici qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri tərəfindən müvafiq icra hakimiyyəti orqanının xəbərdarlığında və ya göstərişində bildirilmiş pozuntuların vaxtında aradan qaldırılmamasına görə -<br><br>**vəzifəli şəxslər min manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min manatadək** məbləğdə cərimə edilir. | **qaldırılmaması**<br><br>581.1. Qeyri-hökumət təşkilatları, xarici qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri tərəfindən müvafiq icra hakimiyyəti orqanının xəbərdarlığında və ya göstərişində bildirilmiş pozuntuların vaxtında aradan qaldırılmamasına görə -<br><br>**vəzifəli şəxslər yüz manatdan üç yüz manatadək məbləğdə, hüquqi şəxslər üç yüz manatdan beş yüz manatadək** məbləğdə cərimə edilir.<br><br>**581.2. Qeyri-hökumət təşkilatı, xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi müvafiq icra hakimiyyəti orqanının xəbərdarlığında və ya göstərişində bildirilmiş pozuntuların müəyyən edilmiş müddətdə aradan qaldırılmamasına görə inzibati məsuliyyətə cəlb edildikdən sonra müvafiq qurum tərəfindən həmin pozuntular aradan qaldırılmadıqda –**<br>**vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, hüquqi şəxslər beş yüz manatdan səkkiz yüz manatadək məbləğdə cərimə edilir.** |